*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 510-515*
https://doi.org/10.62837/2024.6.510

**QULİYEVA NƏRMİN SƏNAN QIZI**
*OdlarYurdu Universiteti, Koroğlu Rəhimov 13*
*odlaryurdu.magistratura@mail.ru*

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİN PEŞƏ TƏHSİLİ SİSTEMİNİN TƏŞKİLİ TƏCRÜBƏSİ

**Xülasə:**

Dünya ölkələrinin əksəriyyətində peşə təhsilinə böyük önəm verilir. Hesab olunur ki, peşə təhsili bilavasitə əmək bazarının yüksək ixtisaslı peşəkar işçi qüvvəsi ilə təmin edilməsi, bütövlükdə ölkənin rəqabətqabiliyyətinin, əhalinin gəlir səviyyəsinin və eləcə də həyat səviyyəsinin artırılmasına xidmət edir. İnkişaf etmiş ölkələrdə orta məktəb məzunlarının orta hesabla 40-60 faizi peşə təhsili müəssisələrində təhsillərini davam etdirərək müvafiq peşə öyrənməklə öz karyeralarının əsasını qoyurlar. Azərbaycanda peşə təhsili sisteminin formalaşması 1843-cü ildə ilk sənət məktəblərinin yaranmasından başlamış, tarixin müxtəlif dönəmlərində yüksək inkişaf mərhələlərinə çatmış, iqtisadiyyatda sənaye və kənd təsərrüfatı üçün çoxsaylı peşəkar kadrlar hazırlamışdır. Erməni işğalçılarının 90-cı illərdə ölkəmizə təcavüzü peşə təhsilinə də təsirsiz ötüşmədi. Lakin 1996-cı ildən başlayaraq peşə təhsili sisteminin təkmilləşdirilməsi üçün dövlət tərəfindən yeni sənədlər işlənib həyata keçirilməyə başladı.

Gənclərin peşə-ixtisas təhsili ilə əhatəlilik səviyyəsinin artırılması istiqamətində ən vacib məsələ – peşə təhsili sisteminin fəaliyyətinin keyfiyyətcə yaxşılaşdırılması və şəbəkəsinin genişləndirilməsi məsələsidir. Bu da gənclərin məşğulluğunun artırılması baxımından ölkə başçısının daima diqqət mərkəzindədir və demək olar ki, həyata keçirilən bütün proqramların əsas prioritetlərindən birini təşkil edir. Bunları nəzərə alaraq peşə təhsili sisteminin hazırki vəziyyətinin qiymətləndirilməsi çox aktualdır və bu tədqiqat işinin əsas tərkib hissəsini təşkil edir. Beynəlxalq təcrübədə peşə təhsilinə hər şeydən əvvəl, gənclər mühitində sosial gərginliyin azaldılması imkanı kimi baxılır. Bu cür təhsil sosial yüksəliş rolu oynadıqda daha cəlbedici olur, dövlətin də buna diqqət və qayğısı daha çox hiss olunur. PTT müəssisələrinin idarə edilməsində və başlıca olaraq peşə təhsilinin inkişaf strategiyasının və ümumi konsepsiyanın hazırlanmasında bütün əmək bazarı subyektlərinin rolu daha böyük əhəmiyyət kəsb edir. Ona görə ki, peşə təhsili və təlimi bilavasitə əmək bazarı ilə əlaqəlidir, öz nüfuzunu saxlamaq üçün orada baş verən dəyişikliklərə, tələblərə çevik uyğunlaşmağı bacarmalıdır.

**Açar sözlər:** PTS, rəqabətqabiliyyəti, peşə təhsili, elmi-texniki inkişaf

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 510-515*

**Guliyeva is the daughter of Narmin Sanan**

# ORGANIZATIONAL EXPERIENCE OF THE VOCATIONAL EDUCATION SYSTEM OF DEVELOPED COUNTRIES

**Summary:**

Vocational education is given great importance in most countries of the world. It is believed that vocational education directly serves to provide the labor market with highly qualified professional workforce, to increase the competitiveness of the country as a whole, the income level of the population, and the standard of living. In developed countries, an average of 40-60 percent of high school graduates continue their education in vocational training institutions and lay the foundation for their careers by learning a relevant profession. The formation of the vocational education system in Azerbaijan began with the establishment of the first art schools in 1843, reached high development stages in different periods of history, and prepared numerous professional personnel for industry and agriculture in the economy. The aggression of the Armenian invaders in the 1990s did not leave an impact on vocational education. However, starting from 1996, new documents were developed and implemented by the state to improve the vocational education system.

The most important issue in the direction of increasing the comprehensiveness level of vocational-specialized education of young people is the issue of qualitative improvement of the activity of the vocational education system and expansion of its network. This is always in the focus of the head of the country's attention in terms of increasing the employment of young people and is one of the main priorities of almost all implemented programs. Taking these into account, the assessment of the current state of the vocational education system is very relevant and constitutes the main component of this research work. In international practice, vocational education is viewed first of all as an opportunity to reduce social tension in the environment of young people. This kind of education becomes more attractive when it plays the role of social advancement, and the attention and care of the state is felt more. The role of all labor market subjects is of greater importance in the management of PTT institutions and mainly in the preparation of the development strategy and general concept of vocational education. Because vocational education and training is directly related to the labor market, it must be able to flexibly adapt to the changes and demands in order to maintain its reputation.

**Keywords:** PTS, competitiveness, professional education, scientific and technical development

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 510-515*

# ОРГАНИЗАЦИОННЫЙ ОПЫТ СИСТЕМЫ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ РАЗВИТЫХ СТРАН

Гулиева Нармин Санан

**Резюме:**

Профессиональному образованию придается большое значение в большинстве стран мира. Считается, что профессиональное образование напрямую служит обеспечению рынка труда высококвалифицированной профессиональной рабочей силой, повышению конкурентоспособности страны в целом, уровня доходов населения, уровня жизни. В развитых странах в среднем 40-60 процентов выпускников школ продолжают обучение в учреждениях профессионального образования и закладывают основу своей карьеры, освоив соответствующую профессию. Формирование системы профессионального образования в Азербайджане началось с создания в 1843 году первых художественных школ, достигло в разные периоды истории высоких этапов развития, подготовило многочисленные профессиональные кадры для промышленности и сельского хозяйства в экономике. Вторжение в нашу страну армянских оккупантов в 90-е годы не оказало влияния на профессиональное образование. Однако, начиная с 1996 года, государством были разработаны и внедрены новые документы по совершенствованию системы профессионального образования.

Важнейшим вопросом в направлении повышения уровня комплексности профессионально-специального образования молодежи является вопрос качественного улучшения деятельности системы профессионального образования и расширения ее сети. Это всегда находится в центре внимания главы страны в плане повышения занятости молодежи, и является одним из главных приоритетов практически всех реализуемых программ. Учитывая это, оценка современного состояния системы профессионального образования весьма актуальна и составляет основную составляющую данной исследовательской работы. В международной практике профессиональное образование рассматривается прежде всего как возможность снизить социальную напряженность в среде молодежи. Такое образование становится более привлекательным, когда оно играет роль социального развития, больше ощущается внимание и забота государства. Роль всех субъектов рынка труда приобретает большее значение в управлении учреждениями ПТТ и, главным образом, в подготовке стратегии развития и общей концепции профессионального образования. Поскольку профессиональное образование и обучение напрямую связаны с рынком труда, оно должно иметь возможность гибко адаптироваться к изменениям и требованиям, чтобы сохранить свою репутацию.

**Ключевые слова:** ПТС, конкурентоспособность, профессиональное образование, научно-техническое развитие.

Müasir PTS-nin inkişafinda sosial dialoqun rolu və əhəmiyyəti böyükdür. Avropa ölkələrində sosial tərəfdaşlar peşə təhsilinin maliyyələşdirilməsi və inkişaf etdirilməsində fəal iştirak edirlər, bu da həmin ölkələrdə qəbul olunmuş əmək bazarının tənzimlənməsi strategiyasının əsas tərkib hissəsini təşkil edir . Avropada sosial tərəfdaşlar peşə təhsilinin inkişafında əməkdaşlıq etmək üçün öz təkliflərini irəli sürürlər. Məsələn, aşağıdakıları göstərmək olar:

-peşə təhsilinin inkişafına mütləq vergi tətbiqi;

-ödənişli təhsil məzuniyyətinin tətbiqi;

-kollektiv müqavilə mexanizmləri ilə xüsusi sənaye fondlarının formalaşdırılması və s.

Dünya iqtisadiyyatının qeyri-sabit inkişaf etdiyi şəraitdə rəqabətqabiliyyətli milli iqtisadiyyatın yaradılmasının əsas şərti onun yüksəkixtisaslı işçi qüvvəsi ilə təmin edilməsi olsa da, bunu yalnız ayrı-ayrı müəssisələrin çərçivəsində etmək mümkün deyil. PTS qarşısında duran problemlərin miqyası məsələnin həm təşkilati, həm də maliyyə baxımından həlli səlahiyyətlərinin və cavabdehliyin dövlət, özəl sektor və şəxslər arasında bölüşdürülməsini tələb edir. Tədqiqatın gedişində aydın olmuşdur ki, bu cür işdə sahibkarların az iştirak etməsi bəzi ölkələrdə səmərəli fəaliyyət mexanizminin formalaşmasına mane olur.

İşçilərin dövlət təhsil müəssisələrində həyata keçirilən ixtisasartırmasına sərf olunan dövlət xərclərini örtmək üçün bir çox ölkələrdə təhsilin inkişafına yönəltmək məqsədi daşıyan xüsusi vergilər tətbiq olunur. Məsələn, Fransada sahibkarlar əmək ödəniş fonduna 2 cür vergi ödəyirlər. Birincisi, şagirdliyə görə vergi, hansı ki, bir hissəsi tədris mərkəzlərinə qrant üçün, qalan hissəsi isə dinləyicilərin təqaüdünə sərf olunur. İkincisi, alternativ təhsil ehtiyacları üçün vergidir ki, məhz işçilərin təhsil haqqlarına xərclənir. Əgər sahibkar il ərzində öz vəsaiti hesabına şagirdləri hazırlayıbsa həmin vergini ödəməkdən azad olunur. Danimarkada da buna bənzər model tətbiq olunur.

Bəzi ölkələrdə işəgötürənlərin bu cür xərcləri dövlət tərəfindən kompensasiya olunur. Bununla yanaşı, işçilərə özhesabına təhsil verən firmalar vergi və digər güzəştlər əldə edə bilərlər. Belə ki, bu problemin həllinin tamamilə firma və müəssisələrin üzərinə qoyulması biznesin səmərəliliyinin və investisiya fəallığına stimulunun aşağı düşməsinə səbəb ola bilər.

Bilik və informasiya iqtisadiyyatının formalaşdığı bir dövrdə ölkələrin sosial-iqtisadi, həmçinin də siyasi və mədəni inkişafı yüksək elmtutumlu texnologiyalara nə dərəcədə çevik yiyələnə biləcəyindən çox asılıdır. Bu isə təhsil siteminin, o cümlədən peşə təhsili və təliminin yüksək səviyyədə inkişafını və çevikliyini tələb edir. Lakin nəzərə almaq lazımdır ki, yalnız təcrübədə özünü doğrultmuş keçmiş ənənələrin üzərində yeni mütərəqqi ideyaları tətbiq etməklə ən optimal təhsil sisteminə nail olmaq mümkündür.

Fikrimizcə, Azərbaycanda peşə təhsili müəssisələri və işəgötürənlər arasında sosial tərəfdaşlığın səmərəli təşkilində dövlətin rolu və birbaşa nəzarəti mütləqdir. Lakin peşə təhsilinin statusunun yüksəldilməsi üçün yalnız dövlətin səy göstərməsi kifayət etmir, gənclərin doğru peşə seçimini yönləndirmək üçün biznes və bütün cəmiyyətin birgə fəaliyyəti vacibdir. Bu məqsədlə məktəb, peşə təhsili müəssisələri, kollec və universitetlərin, həmçinin işəgötürənlərin tərəfdaşlığının yeni formaları istifadə olunmalı, lazımi bacarıqlara malik kadrların hazırlanmasında maraqlı olan tərəflərin səmərəli əməkdaşlıq əlaqələri qurması stimullaşdırılmalıdır. Dövlət sosial tərəfdaşları peşə təhsilinin inkişafına cəlb etmək üçün müxtəlif tədbirlərdən istifadə edə bilər. Məsələn, iş yerlərində təhsilə şərait yaradan, şagirdlik yerləri açan işəgötürənləri vergilərdən azad etməklə, yaxud subsidiyalar verməklə onlarda stimul yarada bilər.

Göstərilən istiqamətlər ayrı-ayrı orqanlara tabe olsalar da hər üçü əmək bazarının tələbatlarına uyğun və onunla sıx əlaqədə fəaliyyət göstərməkdədirlər.

Təhsil Nazirliyinin nəzdindəki peşə təhsili müəssisələrinə rəhbərliyi 2016-cı ilin aprelindən bir başa olaraq Peşə Təhsili üzrə Dölət Agentliyi həyata keçirir.

Həmçinin əvvəl məşğul olduğu iş üzrə qabiliyyətini itirdikdə Məşğulluq Xidməti tərəfindən müddəti 1 aydan 3 aya qədər olan peşə təlimi kursları təşkil olunur.

Şirkətlərin nəzdindəki Peşə Təlim Tədris Mərkəzlərində isə daha mürəkkəb fəhlə peşələrinin öyrənilməsi imkanları mövcuddur. Məsələn, SOCAR-ın təcrübəsinə əsasən deyə bilərik ki, şirkətin bilavasitə nəzdində fəaliyyət göstərən 5 mərkəzdə tam orta təhsil bazasından qəbul olunmuş şagirdlər 1 il ərzində istəklərindən asılı olaraq aparatçı, nasosçu, çilingər, qaynaqçı, dalğıc və s. peşələrə yiyələnirlər.

Maddi-texniki bazanın zəif olması, peşə təhsili müəssisələrinin yataqxanalarında və tədris binalarında məcburi köçkünlərin yerləşməsi, tələbə təqaüdlərinin azlığı və s. səbəblərə görə gənclərin bu təhsilə marağı kifayət qədər yüksək deyil. Peşə təhsili sisteminin inkişafını şərtləndirən əsas amillərin aşağıdakılar olduğu aydınlaşdırılmışdır:

- dünyada baş verən inkişaf trendləri;
- sosial-iqtisadi dəyişikliklər;
- elmi-texniki inkişaf, yeni texnologiyaların tətbiqi;
- demoqrafik dəyişikliklər;

## İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT SİYAHISI

1.Qurbanova, İ.M. Peşə təhsili və təliminin məşğulluğa təsirinin qiymətləndirilməsi // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası, – 2020 (1), – s. 98-106

2.Qurbanova, İ.M. Peşə təhsili sistemində qlobal inkişaf meylləri // Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti. Beynəlxalq elmi-praktik konfransın materialları. – Bakı: AMEA 12 oktyabr 2017, – s.138-142

3.Qurbanova, İ.M. Azərbaycanda gənclərin peşə-ixtisas təhsili ilə əhatə olunma səviyyəsi // AMEA İqtisadiyyat İnstitutunun 60 illik yubileyinə həsr olunmuş "İqtisadi artım və ictimai rifah" mövzusunda Beynəlxalq elmi- praktiki konfransın materiallları. – Bakı, – 2019, – s. 670-675

4. https://bibliothek.wzb.eu/pdf/2014/i14-502.pdf

5. https://www.economy.gov.az/article/vto/21561

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi- prof.Əlirzayev Əli Qəmbərəli**
**tərəfindən çapa tövsiyə olunmuşdur**